# Azərbaycanda tibbi maskaların istehsalına dəstək məqsədilə avadanlıqlar alınıb



Avropa İttifaqının maliyyə dəstəyi, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı və Peşə Təhsili üzrə Dövlət Agentliyinin birgə əməkdaşlığı ilə Azərbaycanda koronavirus pandemiyası dövründə tibbi maskaların istehsalına dəstək məqsədilə bir sıra texniki avadanlıqların satınalınması həyata keçirilib.

Bu barədə BMT-nin Azərbaycandakı nümayəndəliyindən verilən məlumatda bildirilir ki, həmin təşəbbüs çərçivəsində müasir maska iplikləri üçün istifadə edilən avadanlıq və bir ton xammal BMT-nin İnkişaf Proqramının beynəlxalq təchizat zənciri vasitəsilə Bakıya çatdırılıb, Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində quraşdırılıb.

Hazırda 24 saat fəaliyyət göstərən emalatxanada istehsal prosesinə 85 nəfər cəlb olunub. Burada günlük 100 000 tibbi maska istehsal edilir.

Tibb qəzeti 2020.- 31 avqust.- S.8.